**Mövzu 1. Beynəlxalq iqtisadi münasibətlərin (BİM) mahiyyəti, formaları və onun dünya iqtisadiyyatında rolu və əhəmiyyəti**

*1. BİM-in mahiyyəti, predmeti və formaları*
*2. BİM-in milli iqtisadiyyatlar üçün əhəmiyyəti, onun göstəricilər sistemi və qarşılıqlı iqtisadi asılılıq*
*3. BİM-in inkişaf amilləri və meylləri*
*4. Dünya təsərrüfatının mahiyyəti, xüsusiyyətləri və onun inkişafinfa müasir meyllər*
*5. Dünya təsərrüfatında qloballaşma prosesi və qlobal problemlər*
*6. BİM-də ölkələrin təsnufləşdirilməsi göstəriciləri və meyarları*

## *1. BİM-in mahiyyəti, predmeti və formaları*

Bəşər cəmiyyətlərinin müxtəlif təşkilati formaları dövründə iqtisadi əlaqələrin inkişafı böyük tarixə malikdir ki, bu barədə əvvəlki mövzuda məlumat verilib. İlk vaxtlarda bəsit məzmun daşıyan iqtisadi münasibətlər ən müxtəlif amilllərin təsiri nəticəsində daim genişlənərək və inkişaf edərək hazırkı formasına gəlib çatmış, bütün ölkələrin maraqlarına və mənafelərinə uyğun olan mürəkkəb münasibətlər sistemi halına düşmüş, beynəlxalq iqtisadi münasibətlər formalaşmışdır.

*Beynəlxalq iqtisadi münasibətlər (BİM)* – maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı üzrə müxtəlif ölkələrin təsərrüfat subyektləri arasında qarşılıqlı fəaliyyət sistemidir. BİM ayrı-ayrı ölkələr, onların regional birlikləri, həmçinin ayrı-ayrı müəssisələr (transmilli və çoxmilli şirkətlər) arasında iqtisadi münasibətlərin çoxsəviyyəli təsərrüfat əlaqələri kompleksidir.

*BİM-in predmeti* kimi iki əsas tərkib hissəsi çıxış edir: BİM-in özü və bu münasibətlərin reallaşdırılması mexanizmi. BİM bir elm kimi xarici ölkələrin iqtisadiyyatını deyil, onların iqtisadi münasibətlərinin xüsusiyyətlərini öyrənir.

BİM, ümumilikdə iqtisadi münasibətlər kimi insan fəaliyyətinin bir sferasıdır və o, təsərrüfat fəaliyyətinin ümumi qanunauyğunluqlarına tabe olur. BİM obyektiv olaraq əmək

bölgüsü prosesindən, istehsalın və elmin beynəlxalq ixtisaslaşmasından, təsərrüfat fəlaiyyətinin beynəlmiləlləşməsindən çıxış edir.

BİM-ə milli təsərrüfatların iqtisadi cəhətdən qarşılıqlı əlaqə və asılılıq münasibətləri sistemi kimi də baxıla bilər. BİM-in formalaşması və inkişafı yrı-ayrı ölkələrin iqtisadiyyatlarının qarşılıqlı əlaqə və asılılıqlarının güclənməsi ilə şərtlənir.

Bununla belə, bütün bu qarşılıqlı yaxınlaşma və əməkdaşlıq prosesləri ziddiyyətli, dialektik xarakter daşıyır. BİM-in dialektikası özünü onda göstərir ki, iqtisadi müstəqilliyə səy göstərmə, ayrı-ayrı ölkələrin milli təsərrüfatlarını inkişaf etdirmək istiqamətində həyata keçirdikləri məqsədyönlü tədbirlər son nəticədə dünya təsərrüfatının daha çox beynəlmiləlləşməsinə, milli iqtisadiyyatların xarici aləm üçün daha çox açılmasına, beynəlxalq əmək bölgüsünün dərinləşməsinə gətirib çıxarır.

BİM milli iqtisadiyyatların bazar xarakterini də əks etdirir. BİM-in inkişaf etmiş bazar təsərrüfatı sahəsi kimi əlamətləri aşağıdakılardır:

1) BİM-in iştirakçılarının beynəlxalq əmək bölgüsü və milli sərhədlər bazasında iqtisadi xüsusiləşməsi;
2) istehsal amilləri və nəticələri ilə beynəlxalq mübadilə nəticəsində əmtəə, xidmət, kapital, iş qüvvəsi, texnologiya dünya bazarlarının yaranması və fəaliyyət göstərməsi. BİM özlüyündə məhsulların və xidmətlərin ölkələrarası çoxsaylı axınlarını əks etdirir ki, bu şəraitdə də dünya bazarları formalaşır və bu bazarlarda daimi sistematik xarakter kəsb edən alqı-satqı əməliyyatları baş verir;
3) BİM çərçivəsində tələb, təklif, qiymət qanunlarının tam surətdə fəaliyyəti;
4) istehsalçılar, satıcılar və alıcılar arasında olan rəqabət mübarizəsi;
5) istehsalın və satışın inhisarlaşması.

Bununla yanaşı, BİM, onu digər iqtisadi münasibətlərdən fərqləndirən bir sıra xüsusiyyətlərə malikdir. Onların sırasına aşağıdakıları aid etmək olar:

1. Təsərrüfat münasibətləri milli sərhədlər çərçivəsindən kənara çıxır, geniş ərazini əhatə edir, mübadilə həcmi daha yüksəkdir, subyektlərin sayı müqayisəolunmaz dərəcədə çoxdur;
2. Ayrı-ayrı ölkələrin sərhədlərindən kənara resursların, istehsal amillərinin və istehsalın nəticələrinin hərəkəti baş verir, milli iqtisadiyyata əlavə resurslar cəlb olunur;

3. İstehsalçılar, satıcılar və alıcılar arasında daha geniş miqyaslı, bəzən qlobal və kəskin rəqabət mübarizəsi mövcud olur;
4. BİM-in ayrı-ayrı formaları daxili bazarda mövcud olan əlaqələrə nisbətən daha yüksək qarşılıqlı əlaqəyə və asılılığa malikdir;
5. Qarşılıqlı təsirin xüsusi alətləri və mexanizmləri işlənilir və istifadə edilir. BİM-in milli səviyyədə (dövlətin xaici ticarət siyasəti formasında), ikitərəfli səviyyədə (ikitərəfli sazişlər çərçivəsində), regional səviyyədə (inteqrasiya birlikləri çərçivəsində), beynəlxalq səviyyədə (beynəlxalq təşkilatların rəhbərliyi altında) tənzimlənməsinin xüsusi sistemləri yaradılır. Əsas xüsusiyyət isə ondan ibarətdir ki, BİM dövlət sərhədləri vasitəsilə həyata keçirilir.

BİM-in öyrənilməsi onun makrosəviyyədə və mikrosəviyyədə mahiyyətinin açılışını tələb edir. Makrosəviyyədə BİM dünya təsərrüfatında milli iqtisadiyyatların əlaqələrinin forma və üsullarıdır: xarici ticarət, istehsal amillərinin beynəlxalq miqrasiyası və s.

Mikrosəviyyədə BİM beynəlxalq əmək bölgüsünə əsaslanan, xarici iqtisadi əlaqələrə istiqamətlənən milli iqtisadi vahidlərin xüsusi fəaliyyət sahəsidir. Milli istehsalçılar və istehlakçıların nöqteyi-nəzərindən BİM əmtəələrin, xidmətlərin, kapitalın, texnologiyaların ixracı, idxalı, təkrar ixracı, təkrar idxalı, istehsalın beynəlxalq kooperasiyası və s. kimi başa düşülür.

BİM-in obyekti kimi çıxış edirlər:

1) maddi formada olan əmtəələr (xammal və ərzaq malları, hazır məhsullar, emal sənayesinin məhsulları və s.);
2) xidmətlər (beynəlxalq injinirinq, konsaltinq, audit, lizinq, turizm, daşımalar, köçürmələr və s.);
3) texnologiyalar (patentli və patentsiz lisenziyalar, əmtəə nişanları və s.);
4) kapital (birbaşa və portfel investisiyaları, beynəlxalq kredit və s.);
5) işçi qüvvəsi və s.

Yuxarıda qeyd edildiyi kimi, BİM iqtisadiyyatların müxtəlif səviyyələrində təzahür edə bilər ki, onun da subyektləri aşağıdakılardır:

1) *Mikrosəviyyə.* Burada BİM-in subyektləri kimi bu və ya digər xarici iqtisadi əməliyyatları həyata keçirən ayrı-ayrı fiziki şəxslər, orta və kiçik müəssisələr və firmalar çıxış edir;
2) *Makrosəviyyə.* Bu səviyyənin əsas subyektləri kimi milli dövlətləri, onların subyektlərini, beynəlxalq iqtisadi inteqrasiya qruplaşmalarını, transmilli və qlobal şirkətləri göstərmək olar;
3) *Üstmilli səviyyə.* Bu səviyyədə beynəlxalq təşkilatlar və üstmilli institutlar fəaliyyət göstərir.

Müasir BİM-ə sosial-iqtisadi inkişafından və siyasi istiqamətindən asılı olmayaraq sənayecə inkişaf etmiş ölkələrdən tutmuş inkişaf etməkdə olan və yoxsul ölkələrə qədər bütün ölkələr cəlb olunur.

Son illərdə dövlətlər və transmilli şirkətlərlə yanaşı dünya diasporları, iri şəhərlər də BİM-in əhəmiyyətli subyektləri kimi çıxış etməyə başlayırlar. Dünya proseslərində aktiv iştirak etmək üçün fəaliyyətin təşkilinin şəbəkə formalarından istifadə edən qruplar və assosiasiyalar (məsələn, “Qrinpis” ekoloji təşkilatı, antiqlobalistlərin təşkilatları) da BİM sistemində əhəmiyyətli rol oynamağa başlayıblar.

Göstərilən subyektlər dünya iqtisadiyyatının müxtəlif sahələrində öz aralarında qarşılıqlı fəaliyyətdə və təsirdə olur ki, bunun da nəticəsində BİM-in müəyyən strukturu formalaşır, onun müxtəlif formaları təzahür edir. Beləliklə, BİM-in əsas formaları aşağıdakılardır:

1) əmtəələrlə və xidmətlərlə beynəlxalq ticarət;
2) beynəlxalq elmi-texniki mübadilə;
3) kapitalın beynəlxalq hərəkəti;
4) beynəlxalq valyuta-maliyyə və kredit münasibətləri;
5) işçi qüvvəsinin beynəlxalq miqrasiyası;
6) beynəlxalq iqtisadi inteqrasiya.

BİM-in strukturunu geniş mənada götürsək oraya həmçinin beynəlxalq nəqliyyat və gömrük münasibətlərini də aid etmək olar.

Mövcud statistikaya görə, BİM-in aparıcı sahəsi kimi beynəlxalq ticarət çıxış edir. Belə ki, dünya təsərrüfat əlaqələrinin təxminən 80%-i məhz onun payına düşür.

BİM-in hər bir formasının xüsusi sferasının və reallaşma üsullarının, vasitələrinin olmasına baxmayaraq, onlar bir-birləri ilə sıx qarşılıqlı əlaqədə olmaqla vahid bir sistem əmələ gətirirlər. Yuxarıda qeyd edildiyi kimi, BİM bir sistem kimi özündə bir-birlərini qarşılıqlı surətdə şərtləndirən və qarşılıqlı fəaliyyətdə olan BİM formalarının məcmusunu əks etdirir.

Belə ki, əmtəələrlə beynəlxalq ticarət xidmətlərlə beynəlxalq ticarətin (bank, sığorta xidmələri, beynəlxalq daşımalar və s.) inkişafını şərtləndirir. Əmtəələr və xidmətlər üzrə dünya bazarının inkişaf tendensiyaları isə kapitalın beynəlxalq miqrasiyasının artım dinamikasına və coğrafi istiqamətlərinə, onun transmilliləşməsinə, istehsalın beynəlxalq ixtisaslaşmasına və kooperasiyalaşmasına təsir göstərir ki, bunlar da öz növbəsində işçi qüvvəsinin beynəlxalq hərəkətinin intensivləşməsinə gətirib çıxarır.

Beynəlxalq ticarətin, istehsal və elmi-texniki əməkdaşlığın bütün formaları beynəlxalq hesablaşmaların həyata keçirilməsi və beynəlxalq kreditlərin alınması və ya verilməsi imkanlarının mövcudluğunun zəruriliyi ilə əlaqədardır. Bu isə beynəlxalq valyuta-kredit münasibətlərinin inkişafına təkan verir. İnvestisiya və borc kapitalı üzrə dünya bazarlarında mövcud olan vəziyyət isə öz növbəsində əmtəələrlə və xidmətlərlə, texnologiyalarla beynəlxalq ticarətə, dünya təsərrüfatında işçi qüvvəsinin əmək miqrasiyası prosesinə təsir göstərir.

BİM-in praktiki reallaşdırılması onun həyata keçirilmə mexanizminin olmasını tələb edir. BİM-in mexanizmi dedikdə milli və dövlətlərarası səviyyədə qəbul olunmuş (regional və qlobal beynəlxalq iqtisadi təşkilatlar da daxil olmaqla) hüquqi normaların və onların reallaşdırılması alətlərinin (beynəlxalq sazişlər, müqavilələr, konvensiyalar, xartiyalar, kodekslər və s.) məcmusu başa düşülür.

BİM iştirakçılarının fəaliyyətinin əsasını marketinq yanaşması təşkil edir. Potensial ixracatçı məhsulunu ixrac etmək istədiyi ölkənin istehlakçılarının xüsusiyyətləri barədə lazımi və zəruri informasiyaya malik olmasa son nəticədə müvəffəqiyyətsizliyə uğraya bilər. Bunun üçün həmin bazarın detallarına qədər öyrənilməsi, iqtisadi, təbii-iqlim, ekoloji, sosial-mədəni, dini-etnik, psixoloji və siyasi şərtlərin müəyyən edilməsi vacibdir.

BİM sferasında vacib olan yanaşmalardan biri də rəqabətin təhlilidir. Xüsusilə qeyd etmək lazımdır ki, BİM-də haqsız rəqabətə qarşı barışılmaz mövqe tutulur və bazarda

hökmran mövqedən sui-istifadə hallarının qarşısının qətiyyətlə alınmasına çalışılır. Bu, rəqabətin beynəlxalq bazarda daxili bazara nisbətən daha kəskin olması səbəbindən mühüm əhəmiyyət kəsb edir. Rəqiblərin rəqabət qabiliyyətliliyinin dərəcəsinin etibarlı surətdə müəyyən edilməsi və qiymətləndirilməsi xarici bazara çıxış zamanı müvəffəqiyyət qazanmağın əsas amillərindən biridir. Bu zaman həmçinin BİM subyektinin özünün malik olduğu rəqabət üstünlüklərinin müəyyən edilməsi də mühüm əhəmiyyət kəsb edir.

BİM mexanizminin digər bir əhəmiyyətli aspekti informasiya mühitidir. Hətta ticarət-iqtisadi əməliyyatların həyata keçirilməsi zamanı onun iştirakçıları üçün etibarlı və tam informasiyaya malik olmaq mühüm əhəmiyyət kəsb edir. Bu, qərarların qəbul edilməsinə və əsaslandırılmasına, onların yerinə yetirilməsinə nəzarəti təmin etməyə imkan verir.

## *2. BİM-in milli iqtisadiyyatlar üçün əhəmiyyəti, onun göstəricilər sistemi və qarşılıqlı iqtisadi asılılıq*

Məlumdur ki, bəşəriyyətin əsas problemi məhdud resurslar şəraitində insanların fasiləsiz olaraq artan tələbatını maksimum dərəcədə tam ödəməyi təmin etməkdən ibarətdir. Ölkələrin əksəriyyətinin malik olduqları resursların məhdudluğu səbəbindən öz gücünə hər şeyi istehsal etmək iqtisadi cəhətdən məqsədəuyğun deyildir. Məhdud təbii, insan və maliyyə resurslaına malik ölkələrdə əhalinin zəruri tələbatını ancaq bu resurslara arxalanaraq təmin etmək çox çətin məsələdir. Belə bir şəraitdə BİM, regionlar, ölkələr arasında daimi və fasiləsiz xarakter kəsb edən mübadilə olmadan əhalinin artan ehtiyaclarını ödəmək praktiki olaraq mümkün deyildir. Bütün bunlar ölkələr arasında BİM-in mövcudluğunu zəruri edir, onun mili iqtisadiyyatlar üçün əhəmiyyətini şərtləndirir.

Hazırkı dövrdə hətta ən böyük və varlı ölkə üçün də bəşəri həyatın təmin edilməsi üçün BİM, ən müxtəlif əmtəə və xidmətlərlə beynəlxalq mübadilə, xarici ticarət mühüm əhəmiyyət kəsb edir. İstənilən ölkə mövcud şəraiti, malik olduğu amil və resursları cəmiyyətin yüksələn xətlə artan tələbatını ödəmək üçün istifadə etməlidir. Beləliklə BİM, onun formaları istənilən ölkə üçün zəruridir.

BİM-in milli iqtisadiyyat üçün əhəmiyyətini qiymətləndirmək, milli təsərrüfatlar üçün xarici amilin rolunu müəyyən etmək məqsədilə beynəlxalq statistikada ölkənin xarici

ticarətinin onun daxili istehsalına nisbəti göstəricisindən istifadə edilir ki, buna da xarici ticarət kvotası ($XT_k$) deyilir:

$$XT_k = XT/ÜDM \times 100\%$$

Burada XT – xarici ticarət dövriyyəsinin həcmi, ÜDM isə ümumi daxili məhsulun həcmidir.

Kəmiyyət göstəricisi kimi həmçinin ixrac kvotasından ($İx_k$) da istifadə edilir:

$$İx_k = İx/ÜDM \times 100\%$$

Burada İx – ixracın həcmidir. Kifayət qədər yüksək ixrac kvotası bir qayda olaraq milli əmtəənin beynəlxalq bazarda rəqabət qabiliyyətliliyini əks etdirən göstəricidir.

Digər bir göstərici kimi isə idxal kvotasını ($İd_k$) göstərmək olar:

$$İd_k = İd/ÜDM \times 100\%$$

Burada İd – idxalın həcmidir. İdxal kvotasının yüksək olması ölkə iqtisadiyyatının həmin əmtəə üzrə bir o qədər xaici amillərdən asılı olduğunu xarakterizə edir.

Qeyd olunan göstəricilərin müqayisəsi milli təsərrüfat üçün xarici iqtisadi amilin rolunu, müəyyən dövr üçün onun dinamikasını müəyyən etməyə imkan verir.

Xarici ticarətin inkişaf göstəricisi kimi beynəlxalq tədqiqatlarda həmçinin adambaşına düşən xarici ticarət dövriyyəsi, həmçinin ixrac və idxal göstəricilərindən də istifadə edilir. Bu göstəricinin üstünlüyü ondadır ki, o, iqtisadiyyatın ayrı-ayrı sahələri, ölkənin müxtəlif regionları, konkret müəssisə və məhsul növləri üzrə hesablana bilər ki, bu da rayonların, müəssisələrin, sahələrin xarici iqtisadi əlaqələrdə iştirak payını, ehtiyatları və perspektivləri müəyyən etməyə imkan verir.

Bununla yanaşı, vurğulamaq lazımdır ki, yuxarıda göstərilən indikatorlar BİM-in bütün formalarının milli təsərrüfata təsirini xarakterizə etməyə imkan vermir, çünki bu göstəricilər yalnız xarici ticarəti nəzərə alır. Təsadüfi deyildir ki, hazırda beynəlxalq iqtisadi

təşkilatların mütəxəssisləri tərəfindən bu göstəricilərin təkmilləşdirilməsi istiqamətində işlər aparılır, onların xarici investisiyalar və milli istehsalın həcmi ilə əlaqələndirilməsinə çalışılır.

Ölkə iqtisadiyyatının BİM-lə qarşılıqlı əlaqəsini müəyyən etmək üçün birbaşa investisiyaların əhalinin bir nəfərinə düşən həcmi göstəricisindən də istifadə edilir. Eyni zamanda, xarici ticarət göstəricilərinə uyğun olaraq xarici investisiyaların hər iki istiqamətdə axını üzrə də kvota göstəriciləri hesablanır və BİM-im milli iqtisadiyyatda oynadığı rolu xarakterizə etmək üçün istifadə edilir.

BİM-in miqyasının genişlənməsi və rolunun artması ölkələrin qarşılıqlı asılılıq problemini daha da aktuallaşdırır. Ölkələrin qarşılıqlı iqtisadi asılılığı dedikdə BİM və milli qitisadiyyatların qarşılıqlı təsiri altında ölkələrin sarsılmaz qarşılıqlı təsərrüfat əlaqələri başa düşülür.

Bu gün dünyada iqtisadi cəhətdən tam müstəqil olan ölkəni göstərmək çox çətindir, daha doğrusu mümkün deyildir. Bu yolu seçən ölkələr sonda avtarkiyaya – siyasi və iqtisadi izolyasiyaya gəlib çıxırlar. Hazırda Türkmənistanda baş verən proseslər bu ölkənin avtarkiyaya sürükləndiyini söyləməyə əsas verir. Lakin, digər ölkələrin, xüsusilə də Albaniyanın təcrübəsi göstərir ki, bu proses heç də yaxşı nəticələnmir, ölkə əhalisinin həyat səviyyəsini aşağı salır, inkişaf mənbələrini əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Təsadüfi deyil ki, milli iqtisadiyyatın bu cür istiqamətləndirilməsindən imtina qaçılmazdır. Tam iqtisadi müstəqilliyin əldə edilməsi barədə verilən bəyanatlar mifdən başqa bir şey deyildir.

Bununla yanaşı, bir çox, ilk növbədə isə inkişaf etməkdə olan ölkələr yeganə və ya bir neçə məhsul ixracı üzrə olan asılılıqdan, həmçinin ticarət partnyoru kimi əsasən bir ölkənin iştirak etdiyi hallardan qaçmağa çalışırlar ki, bu da onların iqtisadi təhlükəsizliyi baxımından təbii qəbul edilməlidir.

### *3. BİM-in inkişaf amilləri və meylləri*

Müasir dünya təsərrüfatının xarakterik cəhətlərindən biri beynəlxalq iqtisadi münasibətlərin intensiv inkişafda olmasıdır. Bu özünü ölkələr, ölkə qrupları, ayrı-ayrı firma

və təşkilatlar arasında iqtisadi münasibətlərin genişlənməsində və dərinləşməsində göstərir ki, bunu da əsasən aşağıdakı səbəblər şərtləndirir:

- istehsalın beynəlmiləlləşməsi, yəni onun milli sərhədlər çərçivəsindən kənara çıxması, milli iqtisadi sistemlər arasında hərtərəfli və genişhəcmli əlaqələrin və qarşılıqlı asılılığın inkişaf etməsi;
- elmi-texniki tərəqqi nəticəsində ictimai əmək bölgüsünün dərinləşməsi və istehsalçılar arasında ən müxtəlif əlaqələrin, xüsusilə də texnoloji əlaqələrin güclənməsi;
- regional inteqrasiya prosesinin sürətlənməsi nəticəsində bu prosesdə iştirak edən ölkələrin qarşılıqlı əlaqələrinin güclənməsi və onların iqtisadiyyatlarının açıqlığının artması;
- qlobal problemlərin kəskinləşməsinin bütün dünya ictimaiyyətinin bu problemlərin həlli üçün səylərini birləşdirməyə gətirib çıxarması.

Yuxarıda sadalanan amillər, həmçinin qeyd olunmayan bir sıra digər amillər beynəlxalq münasibətlərin xüsusi altsistemi olan BİM-in inkişafını aktivləşdirir.

Ümumilikdə BİM-in bərqərar olmasına və inkişafına ciddi təsir göstərən beş amil bloku vardır. BİM-in inkişafının birinci amillər bloku kimi ölkələr üzrə mövcud olan təbii-coğrafi fərqliliyi qeyd etmək olar. Hər bir ölkə faydalı qazıntı ehtiyatlarına, torpağın münbitliyinə, iqliminə görə müxtəlif şəraitə malikdir ki, bu da onlar üçün BİM-ə cəlb olunmanı və bu münasibətləri inkişaf eydirməyi zəruri edir.

İkinci amillər blokuna maşın sənayesi və kütləvi istehsalın təşkili daxil edilir. Kütləvi istehsalın təşkili əmək məhsuldarlığının kəskin artımına gətirib çıxarır. Nəticədə istehsalın həcmi daxili bazarın ehtiyaclarını aşır və beləliklə də, istehsal olunan artıq məhsul xarici bazarlara çıxarılır. Eyni zamanda istehsalın ixtisaslaşması prosesi inkişaf edir ki, bu da özlüyündə ölkələr arasında əmək nəticələrinin qarşılıqlı mübadiləsini zəruri edir.

Üçüncü amillər bloku elmi-texniki tərəqqi ilə bağlıdır. XX əsrin ikinci yarısında yüksək texnologiyaya əsaslanan istehsalda inqilabi dəyişikliklər baş verdi. Lakin yeni texnologiyaların və yeni növ əmtəələrin işlənməsinə əhəmiyyətli, daim artan xərclər tələb olunur. Bununla əlaqədar əksər ölkələr bu istiqamətdə öz səylərini birləşdirir, əməkdaşlıq

edir və ümumi proqramlar həyata keçirir, ya da müəyyən elmi istiqamətlər üzrə ixtisaslaşaraq əldə olunmuş nəticələrlə mübadilə edirlər.

Dördüncü amillər qrupuna kapital ixracının artması aid edilir. Ölkələr arasında xarici iqtisadi münasibətlərin bərqərar olmasında kapital ixracı mühüm rol oynamışdır. Xarici investisiya qoyuluşunun həyata keçirilməsi ilə beynəlxalq istehsalın əsas subyektləri – transmilli və çoxmilli şirkətlər meydana gəlmişdir. Beynəlxalq kreditləşmə hazırda dünya istehsalının fasiləsizliyini təmin edən mühüm şərtlərdən biridir.

Son illərdə digər amillər bloku – qlobal problemlərin BİM-in inkişafına özünəməxsus təsir dərəcəsi getdikcə artmaqdadır. Ekoloji, enerji, xammal, ərzaq və digər problemlər ümumilikdə sivilizasiyaya aid olduğundan onların həlli ayrıca bir ölkənin qüvvəsi hesabına baş verə bilməz. Buna görə də, onların aradan qaldırılması üçün sosial-iqtisadi inkişaf səviyyələrindən və siyasi istiqamətlərindən asılı olmayaraq bütün ölkələrin birgə səyi zəruridir.

Müasir dünyada BİM-in rolunun artımının əsasında dünya arenasında baş verən fundamental dəyişikliklər durur. Qısa olaraq bu faktorları aşağıdakı kimi göstərmək olar:

- Əvvəllər beynəlxalq əmək bölgüsündə zəif iştirak edən ölkə və ərazilər dünya iqtisadiyyatına daha aktiv surətdə cəlb olunurlar. Keçmiş müstəmləkələr və asılı ölkələr müstəqillik əldə etdikdən sonra bir qayda olaraq dünya ticarətinə, daha sonra isə BİM-in digər formalarına daha intensiv surətdə qoşulurlar.
- Müxtəlif regionlarda istehsal olunan əmtəə və xidmətlərin çeşidi əhəmiyyətli dərəcədə artır. Elmi-texniki tərəqqi təbii resursların istifadə sferasını genişləndirir, məhsulları dünya ticarətinə cəlb olunan yeni istehsal sahələrinin yaranmasına gətirib çıxarır. Beynəlxalq əmtəə mübadiləsinin həcmini əhəmiyyətli dərcədə artırmış və onun çeşidini genişləndirmiş elmi-texniki tərəqqi dünya təsərrüfat əlaqələrinə xidmətlərlə və texnologiyalarla mübadiləni də cəlb etmiş, dünya maliyyə bazarının fəaliyyətinin zaman və məkan baxımından fasiləsizliyini təmin etmiş, beynəlxalq əmək miqrasiyası proseslərini yüngülləşdirmiş və sadələşdirmişdir.
- İnsanlarının özlərinin həyatı dəyişir. Bu, ilk növbədə sayı artmaqda olan sənayecə inkişaf etmiş ölkələrdə baş verir. Xarici əmtəə və xidmətlərin istehlakı, beynəlxalq turizm, xarici ölkələrdə iş, təhsil, müalicə adi hala çevrilir. Texniki cəhətdən daha

mürəkkəb nəqliyyatdan, telekommunikasiya vasitələrindən, maliyyə hesablaşmalarından istifadə ənənəvi hal xarakteri alır.

- Müəssisələrin səhmdar formasının hökmranlığı, ümumdünya maliyyə bazarının strukturunun formalaşması (banklar və digər maliyyə qurumları, qiymətli kağız və valyuta bazarları) kapitalın hətəkəti üçün geniş imkanlar yaradır. Transmilli şirkətlərin inkişafı bu proseslərin rolunu daha da yüksəldir. Xarici müəssisələr özləri ilə yeni istehsal üsullarını, müəssisələrin idarə edilməsinin müasir metodlarını və yeni texnologiyalar gətirirlər.
- Beynəlxalq şirkətlərin dünya təsərrüfatında əhəmiyyətinin artması. Hazırda onlar BİM-in formalarının böyük bir hissəsinə nəzarət edirlər və BİM-in ayrı-ayrı formalarının inkişafında əhəmiyyətli rol oynayırlar.
- Təsərrüfat fəaliyyətinin bazar-kapitalist metodları ümumi genişlik qazanır, qeyri-bazar sosialist iqtisadiyyatının yayıldığı ərazi isə getdikcə azalır. Bu, sonuncular üçün xarakterik olan qapalılıq və avtarkiya meyllərini azaldır. Iqtisadiyyatın açıqlılığı bir növ normaya çevrilir.
- Milli iqtisadiyyatların açıqlığı həmçinin BİM-in liberallaşması, əmtəələrin, kapitalın, işçi qüvvəsinin, texnologiyanın sərbəst hərəkəti imkanlarının genişlənməsi hesabına artır. Müxtəlif formalarda təzahür edən proteksionizm BİM-də hələ də qalmaqdadır, lakin onun təsir dairəsi getdikcə azalır.
- Dövlətlərarası regional inteqrasiya ölkələri vahid iqtisadi məkana yaxınlaşdırır, milli təsərrüfatlar arasında ixtisaslaşma və kooperasiyanın sərhədlərini genişləndirir. Bütün qitələri əhatə etmiş regional iqtisadi inteqrasiya prosesləri inteqrasiya birliklərinin iştirakçı dövlətləri arasında BİM-in bütün formalarının intensiv inkişafına şərait yaradır.
- BİM-in inkişafında meydana gələn problemlərə cavab olaraq onun tənzimlənməsinin dünya və regional sistemləri yaradılır. Bu sistemlərin təkmilləşdirliməsi nəticəsində bütün ölkələr üçün ümumi olan normativ-hüquqi baza formalaşdırılır.
- Özündə nəqliyyatın, kommunikasiyanın ümumdünya şəbəkəsini, qlobal informasiya şəbəkəsini birləşdirən BİM-in ümumdünya infrastrukturu formalaşır. Bu, BİM-in praktiki reallaşdırılmasını zaman baxımından əhəmiyyətli dərəcədə sürətləndirir,

onun həyata keçirilməsinin yeni üsullarını yaradır (İnternet şəbəkəsi vasitəsilə alqı-satqı müqavilələrinin bağlanması, beynəlxalq birjalarda, hərraclarda əmtəə və xidmətlərin alqı-satqısı, beynəlxalq hesablaşmaların dərhal həyata keçirilməsi və s.).

BİM-in inkişafını sürətləndirən amillərlə yanaşı, onun təkamülünə mənfi tərəfdən təsir göstərən faktorlar da mövcuddur. Onilliklər ərzində iki sistem (kapitalist və sosialist sistemləri) arasında olan münaqişəli vəziyyət və soyuq müharibə BİM-in inkişafından da yan keçməmişdir. Qarşılıqlı İqtisadi Yardım Şurasına (QİYŞ) üzv olan ölkələrin SSRİ başda olmaqla yaratdıqları hərbi-siyasi və ticarət-iqtisadi blokda ölkələr arasındakı münasibətlər yalnız müəyyən qədər iqtisadiyyat tərəfindən formalaşdırlır, xarici əlaqələr isə maksimum dərəcədə məhdudlaşdırlırdı. Belə ki, bu ölkələr praktiki olaraq birbaşa xarici investisiyaları öz ölkələrinə buraxmırdılar. Öz növbəsində Qərb ölkələri ABŞ başda olmaqla iqtisadi əlaqələrin məhdudlaşdırılmasından SSRİ-yə qarşı mübarizə vasitəsi kimi aktiv surətdə istifadə edirdilər. Bütün bunlar BİM-in inkişafına mənfi təsir edirdi. Müasir düvrdə postsosialist ölkələrin dünya iqtisadiyyatına ətraflı surətdə qoşulma prosesi də qapalı iqtisadiyyatın miras qoyduğu çətinliklərlə, dünya bazarlarında kəskin mübarizə ilə və digər faktorlarla üzləşir.

BİM-in inkişafı həmçinin sənaye ölkələrinin və keçmiş müstəmləkə və yarımüstəmləkə əyalətlərin iqtisadi inkişaf səviyyələrində olan iri fərqlə də məhdudlaşır. Sonuncu qrup ölkələrinin əksəriyyətinin iqtisadiyyatı bir-iki kənd təsərrüfatı məhsulunun və ya mineral xammalın ixracından birbaşa surətdə asılıdır. Bu isə onsuz da tam olmayan iqtisadiyyatın strukturunun qeyri-sabitliyini daha da artırır.

İqtisadiyyatların açıqlığına olan meyl dövlətlər tərəfindən tətbiq olunan müxtəlif növ maneə və məhdudiyyətlərin saxlanılması, bəzi hallarda isə artırılması ilə müşaiyət olunur. Kasıb ölkələr üçün bu cür maneələr başa düşülən və hətta qaçılmazdır, çünki milli iqtisadiyyatı səmərəli surətdə müdafiə etmədən müasir iqtisadiyyatı inkişaf etdirmək mümkün deyildir.

Normal bazar qüvvələrinin fəaliyyətinə maneçilik törədən hərbi-siyasi amillər də mühüm əhəmiyyət kəsb edir. Silah ixracının artımı son nəticədə BİM-in sağlam inkişafını dağıda bilər. Bu baxımdan ayrı-ayrı ölkələrə qarşı beynəlxalq qaydada razılaşdırılmış tam və

ya qismən iqtisadi blokada və ya birtərəfli surətdə tətbiq olunan tədbirlər artıq nadir hal deyildir.

Nəhayət, BİM-in inkişafına maliyyə və iqtisadi böhranlar da mənfi təsir göstərir.

### *4. Dünya təsərrüfatının mahiyyəti, xüsusiyyətləri və onun inkişafında müasir meyllər*

Müasir BİM-in inkişaf şərtlərindən danışarkən həmçinin dünyanın ümumi olduğunu qeyd etmək lazımdır. Müasir dünya təsərrüfatı ümumdünya quruluşunun tərkib hissəsi olmaqla bütün dünya üçün vahid olan qanun və prinsiplər əsasında fəaliyyət göstərir. Digər tərəfdən, müasir dünya təsərrüfatı özünün qayda və qanunları olan müstəqil sistemdir. Bu sistemin elementləri bir-biri ilə ziddiyyət təşkil etmir, onlar bir-birləri ilə, həmçinin digər sistemlərin (siyasi, hüquqi, ekoloji və s.) elementləri ilə qarşılıqlı əlaqədə olurlar və asılılıq yaradırlar.

BİM-in nəzəriyyəsi və praktikasını öyrənərkən tez-tez *dünya təsərrüfatı* anlayışından istifadə edilir. BİM-in obyektiv əsası kimi çıxış edən müasir dünya təsərrüfatı sıx qarşılıqlı əlaqədə və təsirdə olan, bazar iqtisadiyyatının obyektiv qanunlarına tabe olan milli iqtisadiyyatların məcmusundan ibarət qlobal iqtisadi sistemdir. Daim inkişafda olan qlobal dünya təsərrüfatı eynicinsli olmayaraq özündə sənayecə inkişaf etmiş ölkələrin, inkişaf etməkdə olan ölkələrin və keçid iqtisadiyyatlı ölkələrin milli iqtisadiyyatlarını birləşdirir.

Müasir dünya təsərrüfatının əsasında bazar münasibətləri durur və buna görə də dünya təsərrüfatının liderləri kimi bazar münasibətlərinin daha çox inkişaf etdiyi ölkələr çıxış edirlər.

Özündə hələ də çoxlu ziddiyyətləri və meylləri əks etdirən müasir dünya təsərrüfatının vahidliyi və dinamikliyi XX əsrin ortalarına nisbətən müqayisə olunmaz dərəcədə artmışdır. Müasir dünya təsərrüfatı tam olaraq bazar iqtisadiyyatı prinsiplərinə, beynəlxalq əmək bölgüsünün obyektiv qanunauyğunluqlarına, istehsalın və kapitalın beynəlmiləlləşməsinə əsaslanır. Yeni minilliyin ilk illərində dünya təsərrüfat əlaqələri iqtisadi fəaliyyətin daha intensiv inkişaf edən sahəsi kimi çıxış edir.

Beləliklə dünya təsərrüfatı daim hərəkətdə olan, artan beynəlxalq əlaqələrə və mürəkkəb qarşılıqlı təsirlərə malik olan, bazar iqtisadiyyatının obyektiv qanunlarına tabe olan milli təsərrüfatların məcmusudur. Bu məcmu əsasında həddən artıq ziddiyyətli, bununla yanaşı, az və ya çox dərəcədə vahid dünya iqtisadi sistemi formalaşır.

Bir tərəfdən iqtisadi inkişaf səviyyələrindən və siyasi quruluşlarından asılı olmayaraq bütün ölkələr üçün ümumi olan iqtisadi qanunların (məsələn, tələb və təklif qanunu) fəaliyyəti, digər tərəfdən bütün ölkələrin məhsuldar qüvvələrini inkişafa sövq edən elmi-texniki inqilabın nailiyyətləri dünya təsərrüfatının vahidliyini müəyyən edən obyektiv amillərdir.

Dünya təsərrüfatında hazırda bir sıra sabit meyllər müşahidə edilməkdədir. Onların sırasına aşağıdakıları aid etmək olar:

- iqtisadi artımın sabit templəri. Bütün dünya ölkələrinin orta artım templəri 1990-cı illərin əvvəlində mövcud olan 1%-dən onilliyin axırına 3%-ə qalxıb;
- təsərrüfat əlaqələrinin inkişafında xarici iqtisadi amilin əhəmiyyətinin yüksəlməsi;
- maliyyə bazarlarının qloballaşması və milli iqtisadiyyatların qarşılıqlı asılılıqlarının artması;
- əmtəələrlə beynəlxalq ticarətin öz artim tempinə görə dünya təsərrüfatı subyektlərinin daxili istehsalının artımını əhəmiyyətli dərəcədə (təxminən 1,5% səviyyəsində) üstələməsi;
- xidmətlərlə beynəlxalq ticarətin son onilliklərdə əmtəələrlə beynəlxalq ticarətə nisbətən 3 dəfə sürətlə artması;
- beynəlxalq ticarətin kommersiya fəaliyyəti sahəsindən milli təkrar istehsal prosesinin təmin edilməsinin vacib və zəruri şərtinə çevrilməsi;
- müasir şəraitdə əmtəələrlə və xidmətlərlə beynəlxalq ticarətin ilkin mərhələdə beynəlxalq elmi-texniki əməkdaşlıqla, istehsal prosesində beynəlxalq istehsal əməkdaşlığı və kooperasiyası ilə, obyektin işə salınması mərhələsində isə texniki xidmətlərin göstərilməsi ilə tamamlanması;
- kapitalın beynəlxalq hərəkətində daha yüksək dinamizmin müşahidə edilməsi (1990-cı illərdə təkcə birbaşa xarici investisiyaların artımı əmtəə ixracının artımını 3 dəfə, dünya istehsalının artımını isə 4 dəfə üstələyib);

- dünya bazarında tələbatın ən çox olduğu məhsullar kimi yeni texnologiyaların çıxış etməsi və texnoloji cəhətdən yeni əmtəə və xidmətlərin ayrı-ayrı ölkələrin ixracında malik olduğu xüsusi çəkisinin artması, xüsusi struktura və funksiya mexanizminə malik dünya texnologiya bazarının yaranması;
- elmtutumlu məhsullarla mübadilənin dünya ticarətində payının əhəmiyyətli dərəcədə artması;
- işçi qüvvəsinin beynəlxalq miqrasiyasının miqyasında əhəmiyyətli artımın müşahidə edilməsi;
- regional inteqrasiya proseslərinin daha sürətlə inkişaf etməsi.

Dünya təsərrüfat əlaqələrinin coğrafi quruluşunda da müəyyən dəyişikliklər baş verməkdədir. Belə ki, dünya təsərrüfat əlaqələrinin əsas subyektləri olan sənayecə inkişaf etmiş ölkələr bir-birləri iqtisadi əlaqələri daha da dərinləşdirirlər və bu proses özünü inteqrasiya birlikləri çərçivəsində daha aydın göstərir. İnkişaf etmiş dünyanın üç mərkəzi – NAFTA, Avropa Birliyi və Yaponiya arasında qarşılıqlı fəaliyyət aktivləşir.

İnkişaf etməkdə olan ölkələrin dünya əmtəə, xidmət, kapital və işçi qüvvəsi bazarlarında mövqeləri getdikcə güclənir. Onlar xammal və ərzaq ixracatçılarından hazır məhsul ixracatçılarına, kapital idxal edən ölkədən yavaş-yavaş kapital ixrac edən ölkəyə çevrilirlər. Onların bəziləri injinirinq və maliyyə xidmətləri ixrac etməyə başlayırlar.

Ümumilikdə müasir mərhələdə dünya təsərrüfatı sistemində aralarında sıx əlaqə mövcud olan və subyektlərin iqtisadiyyatlarına, həmçinin BİM-in formalarının özünə ziddiyyətli təsir göstərən köklü dəyişikliklər baş verir. Lakin müasir dövrün çoxsaylı ziddiyyətlərinə baxmayaraq, onun əsas cəhəti kimi qarşılıqlı mübarizə deyil, əməkdaşlığa və qarşılıqlı anlaşmaya yönəlmiş meyl çıxış edir. Vahidliyə, qarşılıqlı əlaqəliliyə, qarşılıqlı asılılığa, daha inkişaf etmiş və sosial baxımdan ədalətli dünyaya yönəlmiş ümumi hərəkəti dünya təsərrüfatında əsas meyl kimi xarakterizə etmək olar.

Dünya təsərrüfatına aid olan ümumilik və vahidliklə yanaşı, onda həmçinin daxili ziddiyyətlər də mövcuddur. Bu ziddiyyətlər özünü əsasən ayrı-ayrı ölkə qrupları üzrə göstərir.

Ziddiyyətlərin birinci qrupu dünya iqtisadi inkişafının 3 mərkəzi – NAFTA (ABŞ başda olmaqla), Avropa Birliyi və Asiya-Sakit okean regionu (Yaponiya başda olmaqla)

arasında mövcuddur. Bu ölkələr arasında ziddiyyətlərin əsas mahiyyəti kimi dünya bazarlarında onlar arasında mövcud olan ciddi rəqabət çıxış edir. Bu zaman tərəflərin məqsədi adətən rəqibi dünya bazarının hər hansı bir seqmentindən çıxarmaq və ya bu seqmenti rəqibdən qorumaq olur.

İkinci qrup ziddiyyətlər "Şimal" – "Cənub" ölkələri arasında olan ziddiyyətlərdir. Burada "Şimal" sənayecə inkişaf etmiş ölkələr, "Cənub" isə inkişaf etməkdə olan ölkələrdir. Bu ziddiyyətlərin mahiyyəti ondan ibarətdir ki, bir çox inkişaf etməkdə olan ölkələr (ilk növbədə yeni sənaye ölkələri) bir çox iqtisadi göstəricilər üzrə faktik olaraq inkişaf etmiş ölkələrin səviyyəsinə çatıblar və buna görə də dünya təsərrüfatında uyğun yer tutmağa çalışırlar.

Üçüncü qrup ziddiyyətlər "Şərq" – "Qərb" ölkələri arasında mövcuddur. Burada "Qərb" dedikdə sənayecə inkişaf etmiş ölkələr, "Şərq" dedikdə isə keçmiş sosialist düşərgəsi ölkələri, başqa sözlə keçid iqtisadiyyatlı ölkələr nəzərdə tutulur. Bu ölkə blokları arasında ziddiyyətlər özünü onda göstərir ki, dünya sosialist sisteminin süqutuna qədər keçmiş sosialist düşərgəsi ölkələri avtarkiya rejimində fəaliyyət göstərirdilərsə, hazırda onların məqsədi kimi dünya bazarına aktiv surətdə daxil olma çıxış edir. Onlar istehsal etdikləri məhsullarla dünya bazarında layiqli yer tutmağa çalışırlar. Lakin sənayecə inkişaf etmiş ölkələr dünya iqtisadiyyatı meydanında yeni rəqib-ölkələrin meydana gəlməsində maraqlı deyillər və buna hər vəchlə mane olmağa çalışırlar.

### *5. Dünya təsərrüfatında qloballaşma prosesi və qlobal problemlər*

Yuxarıda qeyd olunan ziddiyyətlər inkişaf mənbələri olduqları üçün dünya təsərrüfatının ümumi vəhdətini pozmurlar. Ziddiyyətlərin həll edilməsi ilə dünya təsərrüfatı müasir qlobal iqtisadiyyatın xüsusiyyətlərini əldə edir. Müasir qlobal iqtisadiyyatın xüsusiyyətləri kimi aşağıdakıları göstərmək olar:

- sərhəd tanımayan iri şirkətlərin yaranması: transmilli şirkətlərin və bankların bünya təsərrüfatının əsas strukturformalaşdıran elementlərinə çevrilməsi;
- rəqabətin dünya rəqabəti səviyyəsinə qədər güclənməsi və eyni zamanda onun son nəticədə ümumdünya əməkdaşlığına çevrilməsi;

- dünya təsərrüfatının beynəlmiləlləşməsinin keyfiyyətcə yeni səviyyəsinin əldə edilməsi, bu da iki istiqamətdə baş verir:
  1) vahid qlobal bazarın formalaşması;
  2) reginal iqtisadi inteqrasiya bloklarının yaranması.

XXI əsrin əvvəlində dünya təsərrüfatının inkişafı bəşəri fəaliyyətin bütün sahələri üçün istifadə edilən qloballaşma konsepsiyasının meydana gəlməsi ilə nəticələndi. İctimai həyatın bir sferasında baş verən proseslər dönməz olaraq qlobal xarakter kəsb etməyə başlayır və bu zaman digər sahələrdə baş verən proseslərə təsir göstərir. Ona görə də hazırda hüquqi məkanın qloballaşması, siyasi münasibətlərin qloballaşması, iqtisadiyyatın qloballaşması, cinayətkarlığın qloballaşması kimi anlayışlardan istifadə edilir.

Qloballaşma bir termin kimi 1980-ci illərdə meydana gəlmiş və 1990-cı illərdə elmi ədəbiyyatda möhkəmlənmişdir. Müxtəlif mənbələrdə onun izahında müxtəlif fərqlər tapmaq olar. Lakin ümumilikdə o, dünya təsərrüfatının formalaşmasının müasir mərhələsini xarakterizə edir.

Qloballaşma müasir kommunikasiya və informasiya texnologiyaları əsasında formalaşmış maliyyə-iqtisadi, ictimai-siyasi və mədəni əlaqələrin açıq sistemi çərçivəsində ölkələrin, müəssisələrin və insanların ümumdünya qarşılıqlı asılılığıdır. Iqtisadiyyatın qloballaşması bu prosesin mühüm hissəsidir. Qloballaşma bitmiş və ya dayanmış proses deyil. Qloballaşmanı çətinliklər və ziddiyyətlərlə üzləşən inkişaf etməkdə olan proses kimi görmək lazımdır.

Elmi ədəbiyyata qloballaşma anlayışı dünya iqtisadiyyatının keyfiyyətcə yeni vəziyyəti kimi daxil olub. Dünya iqtisadiyyatında qloballaşma prosesi istehsalın və kapitalın beynəlmiləlləşməsinin qanunauyğun nəticəsi kimi çıxış edir. Qloballaşma müəyyən dərəcədə dünya təsərrüfat əlaqələrinin çərçivəsinin genişlənməsi, onun artımının kəmiyyət prosesi kimi də təqdim edilə bilər. Bununla yanaşı, o, müasir dünya iqtisadiyyatına yeni keyfiyyət verir, onun konsolidasiyası və inteqrasiyası prosesini gücləndirir.

Qloballaşma prosesinə iki tərəfdən yanaşmaq olar. Makroiqtisadi səviyyədə qloballaşma ölkələrin və ayrı-ayrı regionların öz sərhədlərindən kənarda iqtisadi aktivliyə səy göstərmələridir. Bu cür səylərə təkan verən amillər kimi isə liberallaşmanı, ticarət və

investisiya maneələrinin aradan qaldırılmasını, azad iqtisadi zonaların yaradılmasını və s. göstərmək olar.

Mikroiqtisadi səviyyədə qloballaşma dedikdə müəssisənin fəaliyyətinin daxili bazar çərçivəsindən kənara genişlənməsi başa düşülür. Sahibkarlıq fəaliyyətinin çoxmilli istiqamətlənməsindən fərqli olaraq qloballaşma dünya bazarının mənimsənilməsinə vahid yanaşma tələb edir.

Qloballaşma milli iqtisadi sistemlərin artan qarşılıqlı əlaqələrini və asılılıqlarını xarakterizə edir. Elmi-texniki inqilabın təsiri altında istehsalın qloballaşması elə bir vəziyyət yaradır ki, praktiki olaraq heç bir ölkəyə “özünün” istehsalına malik olmaq sərfəli olmur. Ayrı-ayrı milli iqtisadiyyatlar dünya təsərrüfatına daha çox inteqrasiya olunur və orada öz yerini tapmağa çalışırlar. Işçi qüvvəsinin hərəkəti, kadrların hazırlanması və mütəxəssis mübadiləsi daha çox beynəlmiləl xarakter kəsb etməyə başlayır.

Qloballaşmanın obyektiv bir proses olduğundan çıxış etsək onu şərtləndirən əsas faktorlar kimi aşağıdakıları göstərmək olar:

- ✓ istehsal amilləri – istehsalın həcminin kəskin surətdə artması, onun həyata keçirilməsinin yeni formalarının peyda olması, nəqliyyat və rabitənin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi;
- ✓ iqtisadi amillər – kapitalın bir nöqtədə həddən artıq təmərküzləşməsi, çərçivəsi milli sərhədlərdən kənara çıxan təşkilati formaların beynəlxalq xarakter kəsb etməyə başlaması və nəticədə vahdi bazar məkanının formalaşması;
- ✓ siyasi amillər – dövlət sərhədlərinin şəffaflaşması, vətəndaşların, əmtəə və xidmətlərin, kapitalın hərəkət azadlılığının yüngülləşməsi;
- ✓ sosioloji amillər – cəmiyyətin həyatında adət və ənənələrin, sosial əlaqələrin rolunun zəifləməsi, milli məhdudiyyətin aradan qaldırılması nəticəsində insanların mobilliyinin yüksəlməsi və beynəlxalq miqrasiyaya təkan verilməsi;
- ✓ informasiya amilləri – işgüzar ünsiyyət vasitələrində baş verən radikal dəyişikliklər, iqtisadi və maliyyə informasiyası ilə operativ mübadilə nəticəsində problemlərin səmərəli surətdə həll olunması, ən yeni infromasiya texnologiyalarının (xüsusilə İnternetin) geniş surətdə yayılması, dövlət tənzimlənməsinin və nəzarətinin imkanlarının əhəmiyyətli dərəcədə məhdudlaşdırılması;

- ✓ elmi-texniki amillər – qabaqcıl elmi-texniki və texnoloji vasitələrdən istifadənin iqtisadi mənfəətləri.

1990-cı illərin sonlarına dünya iqtisadiyyatının qloballaşması bir sıra yeni xüsusiyyətlər əldə edib:

1) xarici iqtisadi əlaqələrin və beynəlxalq hesablaşmaların liberallaşdırlıması keçmiş sosialist düşərgəsinin bir çox ölkələrini əhatə edir;
2) qlobal qarşılıqlı asılılığın güclənməsi və dünya üzrə inkişafda qeyri-bərabərliyin artması tendensiyaları arasında ziddiyyətlərin kəskinləşməsi baş verir;
3) ölkələrin iqtisadi inkişaflarında müşaiyət olunan fərqli intensivlik eyni zamanda bu inkişafın fərqli istiqamətlərə yönəlməsi və fərqli meyarlarla təyin olunması ilə müşaiyət edilir;
4) unifikasiya və standartlaşdırmaya aktiv meyl meydana gəlib. Bütün ölkələr üçün texnologiya, ekologiya, mühasibat uçotu və s. üçün vahid standartlar tətbiq edilir. Standartlar təhsilə və mədəniyyətə də yayılır. Bununla yanaşı, təsərrüfat fəaliyyətinin həyata keçirilməsi qaydalarının unifikasiyalaşdırılmasında problemlər də müşahidə olunur, beynəlxalq təşkilatların bu istiqamətdə həyata keçirilən fəaliyyətlərində uğursuzluqlar müşahidə olunur;
5) beynəlxalq iqtisadi təşkilatlar vahid makroiqtisadi siyasət meyarları tətbiq edir, vergi siyasətinə, monetar siyasətə, məşğulluq siyasətinə və s. qarşı irəli sürülən tələblərin unifikasiyası baş verir;
6) əvvəlki xüsusiyyətlə yanaşı, inkişaf etmiş ölkələrin iqtisadi siyasətlərində mövcud olan ikili standartlar problemi də müşahidə edilməkdədir;
7) iqtisadiyyatda da siyasətdə olduğu kimi birqütblü dünyanın formalaşdırılması prosesi gedir, ümumilikdə yeni dünya qaydası, xüsusilə yeni dünya iqtisadi qaydası formalaşdırılır.

Dünya iqtisadiyyatının qloballaşması prosesi heç də problemsiz ötüşmür. Qloballaşma ilk növbədə sənayecə inkişaf etmiş ölkələrin mövqelərini gücləndirir, onlara əlavə üstünlüklər verir. Əlbəttə ki, qloballaşma geridə qalmış ölkələrə də öz iqtisadiyyatlarını inkişaf etdirmək, dünya iqtisadiyyatının layiqli yer tutmaq üçün müəyyən şərait yaradır. Lakin qloballaşma prosesi mənfi nəticələrlə də müşaiyət olunur. Qloballaşma

bütün ölkələrə toxunan ümumbəşəri problemlərin yaranması və kəskinləşməsi ilə ayrılmaz əlaqədədir. Bu problemlər aşağıdakı kimi məcmulaşdırıla bilər:

- Hərbi-iqtisadi problemlər özündə müasir kütləvi qırğın silahlarının yayılması, sınağı və daha böyük dərəcədə tətbiqi təhlükəsini birləşdirir. Bu cür silahların ehtiyatlarının məhv edilməsi üsulları da bir çox ölkələrin təhlükəsizliyini zərbə altında qoyur. Ən yeni silahlardan istifadə edən beynəlxalq terrorizmin yayılması xüsusi təhlükə yaradır.
- Mühüm elmi-texniki problemlərin həlli və müəyyən sahələrdə tərəqqi bir sıra ölkələrinin resurslarını və səylərini birləşdirmədən mümkün deyil. Bu problemlər sırasında kosmosun, dünya okeanının, Antarktidanın tədqiqini və mənimsənilməsini göstərmək olar. Bu cür birləşmə olmadan xüsusi təhlükəli xəstəliklərə qarşı mübarizə qeyri-səmərəli olur. Bu tip problemlər sırasında həmçinin məhsulların və istehsal üsullarının ümumdünya standartlaşdırmasını göstərmək olar.
- Yoxsulluqla, aclıqla, geridə qalmış ölkələrdə yüksək ölüm səviyyəsi ilə mübarizə bəşəriyyətin gələcəyi üçün mühüm əhəmiyyət kəsb edir. Bu problemlər sırasında həmçinin dünya demoqrafik proseslərinin optimallaşdırılmasını qeyd etmək olar.
- İnsanın təsərrüfat fəaliyyətinin təbiətə təsiri də mühüm ümumbəşəri problemə çevrilib (havanın, suyun və torpağın vəziyyətinin pisləşməsi, atmosferin ozon qatının dağılması prosesi, iqlim istiləşməsi). Bura həmçinin nüvə energetikası ilə bağlı olan texnogen qəzaların qarşısının alınmasını da aid etmək lazımdır.
- Maliyyə və iqtisadi böhranlar getdikcə bütün dünyanı əhatə edir. Bu dünya iqtisadiyyatının artım tempinə və sabitliyinə ciddi surətdə təsir göstərə bilər.

Yuxarıda sadalanan problemlər hər kəsə, bütün dünya ictimaiyyətinə toxunur, yəni ümumi xarakter daşıyır. Bu, qlobal adlandırılan problemlərin birinci prinsipial xarakterik xüsusiyyətidir. Özünün miqyasına, aradan qaldırlması dərəcəsinə və müddətinə görə bu problemlər böyük həcmdə qüvvə və vasitə tələb edir ki, ayrılıqda heç bir ölkə və hətta ölkələr qrupu buna malik deyillər. Onların həlli üçün müxtəlif çeşodli resursların cəlbi vacibdir, yəni, istənilən qlobal problemin doğurduğu ciddi iqtisadi aspektlər mövcuddur və onların həlli bütün dünya ictimaiyyətinin resurslarını, ilk növbədə maddi-maliyyə resurslarını bir nöqtəyə yönəltməkdən keçir. Bir çox və ya bütün ölkələrin, beynəlxalq

təşkilatların məcmu vasitələrinin cəlbinin zəruriliyi bəşəri, başqa sözlə qlobal problemlərin ikinci prinsipial xüsusiyyətidir.

Qlobal problemlərin həlli üçün ölkələrin səylərinin birləşdirilməsi müxtəlif yollarla baş verə bilər: ikitərəfli və çoxtərəfli sazişlər, beynəlxalq təşkilatların yaradılması və fəaliyyəti, iqtisadiyyatın və texnologiyanın müxtəlif sahələrində layihələrin birgə maliyyələşdirilməsi və həyata keçirilməsi, beynəlxalq xeyriyyəçilik və s.

Qloballaşma dövlətlər tərəfindən düşünülmüş iqtisadi siyasətin həyata keçirilməsini tələb edir. Bu cür iqtisadi siyasət daxili və xarici iqtisadi siyasətin dialektik vəhdətini və qarşılıqlı əlaqəsini nəzərə almalıdır. Səmərəli dövlət siyasəti iqtisadi çiçəklənmə, təhsilin və səhiyyənin inkişafı, sosial qeyri-bərabərliyin azaldılması üçün həyati əhəmiyyət kəsb edir. Dövlət ətraf mühitin mühafizəsinin, siyasi və makroiqtisadi sabitliyin, qanunçuluğun əsaslarının, sosial təminatın və təhsilin qarantı kimi çıxış etməlidir.

### *2.6. BİM-də ölkələrin təsnifləşdirilməsi göstəriciləri və meyarları*

Ölkələrin təsnifləşdirilməsi zamanı əsasən Dünya Bankının yanaşmasından istifadə edilir. Bu beynəlxalq iqtisadi təşkilatın yanaşmasına görə, ölkələrin təsnifləşdirilməsinin əsas meyarı kimi adambaşına düşən Ümumi Milli Gəlir (ÜMG) və ya Ümumi Milli Məhsul (ÜMM) çıxış edir. Adambaşına düşən ÜMG-dən asılı olaraq dünya ölkələri aşağı gəlirli ölkələrə, orta gəlirli ölkələrə (bu qrup özü ortadan aşağı və ortadan yuxarı gəlirli ölkələrə bölünürlər) və yüksək gəlirli ölkələrə bölünürlər. Ölkələrin təsnifləşdirilməsi zamanı Dünya Bankı tərəfindən həmçinin coğrafi regionlara və xarici borcun səviyyəsinə əsaslanan analitik kateqoriyalardan da istifadə edilir.

Ölkələrin təsnifləşdirilməsi üçün Dünya Bankı tərəfindən istifadə olunan analitik kateqoriyaların əsası hələ otuz il bundan əvvəl qoyulub və bu zaman Bankın məqsədi daha yoxsul ölkələrə kreditlərin alınması zamanı daha sərfəli şərtlər təqdim etməkdən ibarət olub. Bunun üçün isə ölkələrin iqtisadi potensiallarının müqayisəli qiymətləndirilməsi metodlarının işlənməsi zəruri idi. Mahiyyətinə görə geniş göstərici olan ÜMG Dünya Bankının mütəxəssisləri tərəfindən iqtisadi potensialın və iqtisadi tərəqqinin qiymətləndirilməsi üçün ən yaxşı göstərici müəyyən edildi. Bununla yanaşı, o da qəbul

edildi ki, ÜMG özlüyündə inkişafın səmərəliliyini və ya ölkənin rifahını xarakterizə edə biləcək göstərici deyil. Buna görə də ölkələrin təsnifləşdirilməsi üçün Bank tərəfindən istifadə olunan əsas göstərici kimi adambaşına düşən ÜMG çıxış etməyə başladı.

Qruplar arasında adambaşına düşən gəlirə görə hədlərin müəyyən edilməsi üçün bir çox göstəricilərin (yoxsul əhali faizi, uşaq ölümü göstəricisi) əks olunduğu xüsusi formula işlənilib hazırlandı. Bu formul və Bank tərəfindən il ərzində ayrılan resursların həcminə uyğun olaraq adambaşına gəlirin ilkin hədd kəmiyyətləri müəyyən olundu. Bu ilkin göstəricilər beynəlxalq inflyasiyanın təsiri nəzərə alınmaqla hər il korrektə olnunur və hədd kəmiyyətlərinin real mahiyyəti zamana görə dəyişmir.

Adambaşına ÜMG-yi müəyyən olunmuş səviyyədən aşağı olan ölkələr aşağı gəlirli ölkələr kimi təsnifləşdirilir. Bu göstəricinin Bank tərəfindən müəyyən edilmiş həddən yuxarı olduğu və yüksək gəlirli ölkələr üçün qoyulmuş səviyyədən aşağı olduğu ölkələr orta gəlirli ölkələr adlandırılırlar. Bu tip ölkələr artıq Dünya Bankından 15 illik güzəştli kreditlər almaq hüququndan məhrum olurlar.

*Coğrafi regionlar*a görə təsnifləşdirmə

**East Asia and Pacific**

| | | |
|---|---|---|
| American Samoa | Korea, Rep. | Philippines |
| Australia | Lao PDR | Samoa |
| Brunei Darussalam | Macao SAR, China | Singapore |
| Cambodia | Malaysia | Solomon Islands |
| China | Marshall Islands | Taiwan, China |
| Fiji | Micronesia, Fed. Sts. | Thailand |
| French Polynesia | Mongolia | Timor-Leste |
| Guam | Myanmar | Tonga |
| Hong Kong SAR, China | New Caledonia | Tuvalu |
| Indonesia | New Zealand | Vanuatu |
| Japan | Northern Mariana Islands | Vietnam |
| Kiribati | Palau | |
| Korea, Dem. Rep. | Papua New Guinea | |

**Europe and Central Asia**

| | | |
|---|---|---|
| Albania | Germany | Netherlands |

| | | |
|---|---|---|
| Andorra | Greece | Norway |
| Armenia | Greenland | Poland |
| Austria | Hungary | Portugal |
| Azerbaijan | Iceland | Romania |
| Belarus | Ireland | Russian Federation |
| Belgium | Isle of Man | San Marino |
| Bosnia and Herzegovina | Italy | Serbia |
| Bulgaria | Kazakhstan | Slovak Republic |
| Channel Islands | Kosovo | Slovenia |
| Croatia | Kyrgyz Republic | Spain |
| Cyprus | Latvia | Sweden |
| Czech Republic | Liechtenstein | Switzerland |
| Denmark | Lithuania | Tajikistan |
| Estonia | Luxembourg | Turkey |
| Faeroe Islands | Macedonia, FYR | Turkmenistan |
| Finland | Moldova | Ukraine |
| France | Monaco | United Kingdom |
| Georgia | Montenegro | Uzbekistan |

**Latin America and the Caribbean**

| | | |
|---|---|---|
| Antigua and Barbuda | Dominica | Peru |
| Argentina | Dominican Republic | Puerto Rico |
| Aruba | Ecuador | Sint Maarten (Dutch part) |
| Bahamas, The | El Salvador | St. Kitts and Nevis |
| Barbados | Grenada | St. Lucia |
| Belize | Guatemala | St. Martin (French part) |
| Bolivia | Guyana | St. Vincent and the Grenadines |
| Brazil | Haiti | Suriname |
| Cayman Islands | Honduras | Trinidad and Tobago |
| Chile | Jamaica | Turks and Caicos Islands |
| Colombia | Mexico | Uruguay |

| | | |
|---|---|---|
| Costa Rica | Nicaragua | Venezuela, RB |
| Cuba | Panama | Virgin Islands (U.S.) |
| Curacao | Paraguay | |

**Middle East and North Africa**

| | | |
|---|---|---|
| Algeria | Jordan | Qatar |
| Bahrain | Kuwait | Saudi Arabia |
| Djibouti | Lebanon | Syrian Arab Republic |
| Egypt, Arab Rep. | Libya | Tunisia |
| Iran, Islamic Rep. | Malta | United Arab Emirates |
| Iraq | Morocco | West Bank and Gaza |
| Israel | Oman | Yemen, Rep. |

**North America**

| | | |
|---|---|---|
| Bermuda | Canada | United States |

**South Asia**

| | | |
|---|---|---|
| Afghanistan | India | Pakistan |
| Bangladesh | Maldives | Sri Lanka |
| Bhutan | Nepal | |

**Sub-Saharan Africa**

| | | |
|---|---|---|
| Angola | Gabon | Nigeria |
| Benin | Gambia, The | Rwanda |
| Botswana | Ghana | São Tomé and Principe |
| Burkina Faso | Guinea | Senegal |
| Burundi | Guinea-Bissau | Seychelles |
| Cabo Verde | Kenya | Sierra Leone |
| Cameroon | Lesotho | Somalia |
| Central African Republic | Liberia | South Africa |
| Chad | Madagascar | South Sudan |
| Comoros | Malawi | Sudan |
| Congo, Dem. Rep. | Mali | Swaziland |
| Congo, Rep | Mauritania | Tanzania |
| Côte d'Ivoire | Mauritius | Togo |

| | | |
|---|---|---|
| Equatorial Guinea | Mozambique | Uganda |
| Eritrea | Namibia | Zambia |
| Ethiopia | Niger | Zimbabwe |

*Gəlir kateqoriyası*na görə ölkələr adambaşına düşən ÜMG-yə görə təsnifləşdirilirlər. Dünya Bankının təsnifatına görə, adambaşına illik gəliri 1045 ABŞ dollarından aşağı olan ölkələr *aşağı gəlirli ölkələr,* əhalinin hər nəfərinə düşən gəliri 1045 – 4125 ABŞ dolları arasında dəyişən ölkələr *orta səviyyədən aşağı gəlirli ölkələr* hesab edilirlər. Adambaşına gəliri 4126 – 12735 ABŞ dolları arasında tərəddüd edən ölkələr *orta səviyyədən yuxarı gəlirli ölkələr*, adambaşın orta illik gəliri 12736 ABŞ dollarından yuxarı ola ölkələr isə *yüksək gəlirli ölkələr* sırasına aid edilirlər (2015-ci ilin hesablamalarına görə).

**Low-income economies ($1,045 or less)**

| | | |
|---|---|---|
| Afghanistan | Gambia, The | Niger |
| Benin | Guinea | Rwanda |
| Burkina Faso | Guinea-Bisau | Sierra Leone |
| Burundi | Haiti | Somalia |
| Cambodia | Korea, Dem Rep. | **South Sudan** |
| Central African Republic | Liberia | Tanzania |
| Chad | Madagascar | Togo |
| Comoros | Malawi | Uganda |
| Congo, Dem. Rep | Mali | Zimbabwe |
| Eritrea | Mozambique | |
| Ethiopia | Nepal | |

**Lower-middle-income economies ($1,046 to $4,125)**

| | | |
|---|---|---|
| Armenia | Indonesia | Samoa |
| **Bangladesh** | **Kenya** | São Tomé and Principe |
| Bhutan | Kiribati | Senegal |
| Bolivia | Kosovo | Solomon Islands |
| Cabo Verde | Kyrgyz Republic | Sri Lanka |
| Cameroon | Lao PDR | Sudan |
| Congo, Rep. | Lesotho | Swaziland |

| | | |
|---|---|---|
| Côte d'Ivoire | Mauritania | Syrian Arab Republic |
| Djibouti | Micronesia, Fed. Sts. | **Tajikistan** |
| Egypt, Arab Rep. | Moldova | Timor-Leste |
| El Salvador | Morocco | Ukraine |
| Georgia | **Myanmar** | Uzbekistan |
| Ghana | Nicaragua | Vanuatu |
| Guatemala | Nigeria | Vietnam |
| Guyana | Pakistan | West Bank and Gaza |
| Honduras | Papua New Guinea | Yemen, Rep. |
| India | Philippines | Zambia |

### Upper-middle-income economies ($4,126 to $12,735)

| | | |
|---|---|---|
| Albania | Fiji | Namibia |
| Algeria | Gabon | Palau |
| American Samoa | Grenada | Panama |
| Angola | Iran, Islamic Rep. | **Paraguay** |
| Azerbaijan | Iraq | Peru |
| Belarus | Jamaica | Romania |
| Belize | Jordan | Serbia |
| Bosnia and Herzegovina | Kazakhstan | South Africa |
| Botswana | Lebanon | St. Lucia |
| Brazil | Libya | St. Vincent and the Grenadines |
| Bulgaria | Macedonia, FYR | Suriname |
| China | Malaysia | Thailand |
| Colombia | Maldives | Tonga |
| Costa Rica | Marshall Islands | Tunisia |
| Cuba | Mauritius | Turkey |
| Dominica | Mexico | Turkmenistan |
| Dominican Republic | **Mongolia** | Tuvalu |
| Ecuador | Montenegro | |

### High-income economies ($12,736 or more)

| | | |
|---|---|---|
| Andorra | Germany | Poland |
| Antigua and Barbuda | Greece | Portugal |
| **Argentina** | Greenland | Puerto Rico |
| Aruba | Guam | Qatar |
| Australia | Hong Kong SAR, China | Russian Federation |
| Austria | **Hungary** | San Marino |
| Bahamas, The | Iceland | Saudi Arabia |
| Bahrain | Ireland | **Seychelles** |
| Barbados | Isle of Man | Singapore |
| Belgium | Israel | Sint Maarten (Dutch part) |
| Bermuda | Italy | Slovak Republic |
| Brunei Darussalam | Japan | Slovenia |
| Canada | Korea, Rep. | Spain |
| Cayman Islands | Kuwait | St. Kitts and Nevis |
| Channel Islands | Latvia | St. Martin (French part) |
| Chile | Liechtenstein | Sweden |
| Croatia | Lithuania | Switzerland |
| Curaçao | Luxembourg | Taiwan, China |
| Cyprus | Macao SAR, China | Trinidad and Tobago |
| Czech Republic | Malta | Turks and Caicos Islands |
| Denmark | Monaco | United Arab Emirates |
| Estonia | Netherlands | United Kingdom |
| Equatorial Guinea | New Caledonia | United States |
| Faeroe Islands | New Zealand | Uruguay |
| Finland | Northern Mariana Islands | **Venezuela, RB** |
| France | Norway | Virgin Islands (U.S.) |
| French Polynesia | Oman | |

*Xarici borcun həcmin*ə görə ölkələrin təsnifləşdirilməsi zamanı Dünya Bankının standart anlayışlarından – *borcluluq səviyyəsi yüksək* və *mülayim olan ölkələr*

anlayışlarından istifadə edilir. Yüksək borcluluq o deməkdir ki, aşağıdakı borcluluq əmsallarından biri böhran səviyyəsini keçmişdir: borca xidmətin dəyərinin ÜGM-ə nisbəti (böhran həddi – 80%) və borca xidmətin dəyərinin ixraca nisbəti (böhran həddi – 220%). Mülayim borcluluq anlayışından isə yuxarıda qeyd olunan göstəricilərdən birinin 60%-i keçdiyi, amma böhran həddinə çatmadığı halda istifadə edilir. Yerdə qalan bütün ölkələr isə *borcluluq səviyyəsi yüksək olmayan ölkələr* kimi təsnifləşdirilir.

Bununla belə bir sıra alimlərin və iqtisadçıların fikrincə, Dünya Bankının təsnifləşdirmə meyarlarını ideal kimi qəbul etmək olmaz. Belə ki, dünya təsərrüfatında baş verən dəyişikliklər BİM-də ölkələrin təsnifləşdirilməsi məsələsinə də öz təsirini göstərmişdir. Bu yaxınlara qədər dünya ictimaiyyəti əsasən sosial-iqtisadi və siyasi əlamətlərinə görə müxtəlif qruplara ayrılırdı və BİM-də “Şərq” – “Qərb” xətti üzrə münaqişəli qarşıdurması öz əksini tapırdı. Bu cür bölgünün mahiyyəti ondan ibarət idi ki, siyasi aspektlərin önə çəkilməsi sosial-iqtisadi aspektləri arxa plana çəkir, ölkədə mövcud olan real iqtisadi vəziyyəti gizlətməyə imkan verirdi.

Üçüncü dünya və ya “Cənub” kimi anlayışlara gəldikdə isə, hazırda bu anlayışlar da özünün ilkin mənalarını itirməkdədirlər. Məsələn, adətən “Cənub” anlayışının iqtisadi cəhətdən daha zəif inkişaf etmiş ölkələrə aid edirlər. Lakin, bununla belə, həmin qrupa daxil olan ölkələrin bəziləri müasir mərhələdə yüksək sürətlə inkişaf edir və getdikcə sənayecə inkişaf etmiş ölkələrin səviyyəsinə yaxınlaşırlar.